# Knarr Knaroad

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Məhsul xlorkauçukla modifikasiya edilmiş alkid qətranı əsaslı və xüsusi qatqılar əlavə edilmiş yüksək performansa və tez qurumaya malik olan yol cizgi boyasıdır. Səthə mükəmməl yapışır, aşınma müqavimətinə sahibdir, elastikdir, duzlu suya və kimyəvi maddələrə dayanıqlıdır.

### İstifadə olunacaq səthlər

Knarr Knaroad nəqliyyat hərəkətini nizamlayan işarələmə boyası kimi, şəhər içi və şəhər kənarı yollarda, avtoparklarda, qarajlarda, hava limanı yollarında, tennis kortlarında, alış-veriş mərkəzlərində, emalatxana və depolarda, sənaye obyektlərində, piyada keçidi və səkilərdəki bordurlarda istifadə edilir. Asfalt, beton, mozaik və s. səthlərdə istifadəyə uyğundur.

### Fiziki xassələri

| | | |
|---|---|---|
| **Rəng** | | Beyaz, sarı, qırmızı |
| **Qatı maddə miqdarı** | ASTM D2697-03 | 73%±2 (by volume) |
| **Sıxlığı (gr/sm$^3$)** | ASTM D1475-13 | 1.51±0.02 |
| **Özlülüyü (25°C) KU** | ASTM D562-10 | 105±5 |
| **Parıldama nöqtəsi** | ISO 3679 | 21°C±2 |
| **Parlaqlıq (GU 60$^0$C)** | ASTM D523-14 | Mat (0-10) |
| **İncəltici** | | 5-10 % Rapid Tiner ilə incəldilməlidir |

### Səthin hazırlanması

Tətbiq olunan səth hər cür kir, yağ, toz və boş təbəqələrdən təmizlənərək lazımi səth korreksiyası işləri aparılmalıdır. Ən yaxşı nəticələr asfalt səthlərdə əldə edilir, vakuum beton səthlərdə yapışma az olacağı üçün tətbiqi tövsiyə edilmir.

### İstifadə üsulları

| | |
|---|---|
| **Rulo** | Uyğundur. Bəlirlənən qalınlıqda tətbiqetməyə diqqət edilməlidir. |
| **Fırça** | Kəstirmələr və kiçik sahələrdə tətbiq üçün məsləhət görülür. Bəlirlənən qalınlıqda tətbiqetməyə diqqət edilməlidir. |
| **Spray** | 5-8% rapid tiner ilə incəldilərək tətbiq olunmalıdır. |

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.cmt.com.az

# Knarr Knaroad

## Texniki Məlumat Səhifəsi

| | |
|---|---|
| **Toxunma quruma** | 10 dəqiqə |
| **Toz tutmama quruması** | 15 dəqiqə |
| **Qatlar arasında gözləmə** | 15 dəqiqə |
| **Tam quruması** | 15-20 dəqiqə |

Yuxarıda göstərilmiş məlumatlar qaydalara əməl olunmaqla müəyyən olunmuşdur. Quruma vaxtı film qalınlığına, havalandırmaya, səthdə var olan boya sisteminə, boyanın keçirdiyi əməliyyatlara, mexaniki dayanıqlılığına və qatılmış tiner miqdarına bağlı olaraq arta və ya azala bilər.

### Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (23$^{o}$C-də) 24 aydır.

### Qablaşdırılma şəkli

20 KQ-lıq dəmir qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

**Qeyd:** "CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.cmt.com.az